## 1 noyabr Milli Məclisə seçkilər günüdür

# Təbliğat kampaniyası davam edir

116 saylı Qəbələ seçki dairəsindən Milli Məclisə deputatlığa namizəd Fəttah Heydərov oktyabrın 15-də Nic qəsəbəsində seçicilərlə görüş keçirmişdir.

Görüşü Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri, deputatlığa namizəd Fəttah Heydərovun səlahiyyətli nümayəndəsi Abil Ağasəfov açmışdır.

Sonra çıxış üçün söz namizədin vəkillərinə və Nic qəsəbə sakinlərinə verildi. Çıxış edənlər Fəttah Heydərovun keçən müddətlərdə verdiyi hər bir vədinə sadiqliyindən, seçicilərlə tez-tez görüşməsindən, onların və bütövlükdə qəsəbənin problemləri ilə maraqlandığından və həlli istiqamətində gördüyü işlərdən danışdılar. Onlar qəsəbə seçicilərinin də fikrini ifadə edərək bildirdilər ki, Nic qəsəbə sakinləri namizədləri Fəttah Heydərova səmimi bir insan kimi etimad göstərilir.





Deputatlığa namizəd Fəttah Heydərov iştirakçıları salamlayaraq bu günkü görüşə gəldikləri üçün onlara minnətdarlığını bildirdi. Qeyd etdi ki, Qəbələ rayonunda, o cümlədən bir çox millətlərin birgə dostluq şəraitində yaşadığı tolerantlıq nümunəsi Nic qəsəbəsində aparılan abadlıq, quruculuq işləri ölkə rəhbəri İlham Əliyevin bütün bölgələrə o cümlədən Qəbələ rayonuna göstərdiyi diqqət və qayğının nəticəsidir.

Azərbaycanımız bu gün yüksək inkişafdadır. Azərbaycanımızda sabitlikdir. Bu gün yaxın şərq ölkələrində baş verənləri görürük. Xaosdan, anarxiyadan, bezən əhalinin miqrant axını dünyanı cənginə alıb. Müharibədən, qırğından, terrordan qaçan insanlar dənizlərin qurbanı olur. Onlar öz torpaqlarında rahat yaşasaydılar Avropaya üz tutmazdılar və müsibətlər də başlarına gəlməzdi. Biz ölkəmizdəki sabitliyin qədrini bilməli, onu pozmaq istəyənlərə layiqli cavablarını verməliyik. Bu gün ağsaqqallar, qabaqcıl ziyalılar gənclərə məsləhət verməli, onlara doğru və düzgün yolla getməyi öyrətməlidirlər. Görüşdə Nic qəsəbə sakinlərinin yekdil fikri ifadə olundu. Onlar namizədləri Fəttah Heydərova səs verəcəklər.





* * *

Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Fəttah Heydərov təbliğat kampaniyası çərçivəsində Qəbələ rayonunun təhsil işçiləri ilə görüşdü. Səlahiyyətli nümayəndə Abil Ağasəfovun giriş sözü ilə açdığı görüşdə namizədin həyat və fəaliyyəti barədə vəkili Arifə Bayramova ətraflı məlumat verdi. Bildirdi ki, rayonda ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsində artıq 20 ildir ki, Milli Məclisdə bizi təmsil edən Fəttah Heydərovun xidməti olduqca böyükdür. Fəttah müəllim hər ay ən azı rayondakı 2-3 təhsil müəssisəsinə baş çəkir. Müəllimlərin iş şəraiti ilə maraqlanır. Onların problemlərini öyrənir, həllinə kömək göstərir. Fəttah müəllimin köməyilə son 10 ildə rayonda 20-dən artıq müasir məktəb tikilib. 5 məktəb əsaslı təmir olunub.

Deputatlığa namizəd Fəttah Heydərov rayonun əsas ziyalı ordusu olan təhsil işçiləri ilə görüşdən məmnun qaldığını bildirdi. Müəllimlərin maddi durumunun yaxşılaşdırılması üçün görülən tədbirlərdən və dövlət səviyyəsində nəzərdə tutulan planlardan danışdı.

Çıxış edənlər rayonun bütün təhsil işçilərinin noyabrın 1-də Milli Məclisdə onları bu vaxta qədər ləyaqətlə təmsil etmiş Fəttah Heydərova səs verəcəklərini bildirdilər.

* * *

Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Fəttah Heydərovun seçkilər üzrə səlahiyyətli nümayəndəsi, YAP Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov, vəkilləri Sabir Bayramov və Qüdrət Səmədovla səhiyyə işçilərinin görüşündə namizədin vəkili Sabir Bayramov qeyd etdi ki, rayonumuzda 20 ildə hər cür maddi texniki imkana malik müalicə-diaqnostika mərkəzi istifadəyə verilib, rayon mərkəzi xəstəxanası yüksək səviyyədə əsaslı təmir olunub, müasir avadanlıqlarla təmin edilib. Fəttah Heydərov parlamentin işində yüksək fəallıqla iştirak etməklə yanaşı hələ 20 il qabaq seçkiqabağı platformasında göstərdiyi Qəbələ rayonunda həyata keçirilməsinə yardım edəcəyi işlərin hamısını yerinə yetirib.

Çıxış edənlər Fəttah Heydərovun səhiyyə işçilərinin, bütün rayon əhalisinin yaxın dostu olduğunu qeyd etdilər. Qeyd olundu ki, səhiyyədə də baş verən yüksəlişdə, yeniliklərin tətbiqində Fəttah Heydərovun əvəzsiz rolu var. Bildirildi ki, müalicəsi rayonda mümkün olmayan bir çox xəstələrin Bakı şəhərində, bir sıra xarici ölkələrdə belə müayinə və müalicə olunmasına Fəttah Heydərov yaxından köməklik göstərmişdir.

Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Fəttah Heydərovun rayon müalicə-diaqnostika mərkəzinin kollektivi ilə görüşü də fəallıqla keçdi. Namizədin vəkili Sabir Bayramov Fəttah Heydərovun keçdiyi həyat yolu və fəaliyyəti barədə məlumat verdikdən sonra Mərkəzin baş həkimi Ceyhun Əhmədov və digərləri öz ürək sözlərini bildirdilər.

Milli Məclisə deputatlığa namizəd Fəttah Heydərov bu görüşdən məmnun olduğunu, ölkə Prezidenti İlham Əliyevin açılışında iştirak etdiyi səhiyyə müəssisəsinin belə uğur qazanmasından razı qaldığını bildirdi.

Əmin olduğunu bildirdi ki, səhiyyə işçiləri həmişəki kimi bu seçkilərdə də fəallıqla iştirak edəcəklər.

Yığıncaq iştirakçılarının yekdil fikri belədir: onları parlamentdə layiqincə təmsil edəcək səmimi insan Fəttah Heydərova səs verəcəklər.

**(Ardı 7-ci səhifədə).**